Azərbaycan.- 2021.- 19 mart. S. 8.

# ANAMA və BMT İnkişaf Proqramı Azərbaycandakı minatəmizləmə əməliyyatlarını dəstəkləmək üçün yeni maliyyələşmə sənədi imzalayıblar

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) rezident nümayəndəsi Alessandro Frakassetti münaqişədən sonra icma təhlükəsizliyinin bərpasına yönəlmiş yeni maliyyələşmə sənədini imzalayıblar.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, BMT İP-nin böhran vəziyyətləri üçün nəzərdə tutulan büdcəsindən və BMT-nin Fövqəladə hallara qarşı tədbirlər üzrə Mərkəzi Fondundan Agentliyə bir milyon ABŞ dolları məbləğində vəsait ayrılıb. Bu vəsaitlə BMT İP ANAMA-ya münaqişənin təsirlərinə məruz qalan ərazilərdə yaşayan yerli icmalar üçün ciddi risklər yaradan minaları və partlamamış hərbi sursatları təmizləmək üçün təcili müdaxilə qruplarını təlimləndirmək, təchiz etmək və yerləşdirmək üçün dəstək verəcək.

ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bu layihənin vacibliyini vurğulayaraq gələcək əməkdaşlığa ümidvar olduğunu qeyd edib.

Alessandro Frakassetti BMT İP-nin ANAMA-nı texniki təcrübə, avadanlıq, potensialın inkişafı və maliyyə vəsaiti ilə təmin edərək Azərbaycanda minatəmizləmə əməliyyatlarına dair dəstəyini genişləndirəcəyini bildirib. Rezident nümayəndə bu fəaliyyətin icmaların su mənbələrinə təhlükəsiz şəkildə çıxışının olmasına, evlər, məktəblər və səhiyyə klinikaları tikilməsinə kömək edəcəyini diqqətə çatdırıb.

BMT İP ANAMA-nı minatəmizləmə əməliyyatları zamanı ehtiyaclarının qiymətləndirilməsində dəstəkləyir, beynəlxalq təcrübəni paylaşır, fərdi qoruyucu vasitələr və mina təmizlənməsi avadanlıqlarının alınmasında Agentliyə yardım edir.

Bu əlavə dəstək çərçivəsində minatəmizləmə sahələrinin prioritetləşdirilməsi, minaların aşkarlanması üçün "istilik" xəritələrinin hazırlanması, eləcə də minatəmizləmə əməliyyatları üçün avadanlıqların və minaaxtaran itlərin alınması nəzərdə tutulur.

Qeyd edək ki, ANAMA 1999-cu ildə BMT İP-nin dəstəyi ilə təsis edilib. Son iyirmi ildə ANAMA və BMT İP Azərbaycanda 806 mindən çox mina və digər partlayıcı sursatın təmizlənməsinə yardım göstərərək 160 min 500-dən çox köçkün şəxsin evlərinə təhlükəsiz şəkildə qayıtmasına dəstək olub.